DÖVLƏT VERGİ XİDMƏTİ

# Dövlət reyestri aparılan daşınar və daşınmaz əmlakların reyestr məlumatlarına əsasən siyahıya alınması mümkün olacaq

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

❖ Vergi ödəyicisi vergi orqanı tərəfindən müvafiq yazılı xəbərdarlıq edildikdən sonra dövlət reyestri aparılan daşınar və daşınmaz əmlakı həmin xəbərdarlıqda müəyyən edilmiş müddətdə və yerdə siyahıya alınmaya təqdim etməkdən yayınarsa, həmin əmlak reyestr məlumatlarına əsasən vergi ödəyicisinin (onun qanuni və (və ya) səlahiyyətli nümayəndəsinin) və müşahidəçilərin iştirakı olmadan **vergi orqanı tərəfindən siyahıya alınacaqdır**.

❖ Əmlakın siyahıya alınmasının vaxtı və yeri barədə yazılı qaydada xəbərdar edilmiş vergi ödəyicisi (onun qanuni və (və ya) səlahiyyətli nümayəndəsi) əmlakın siyahıya alınması prosesində iştirak etmədiyi halda, əmlakın

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

siyahıya alınmasını həyata keçirən vergi orqanının vəzifəli şəxsləri 1 iş günü müddətində vergi ödəyicisinə (onun qanuni və (və ya) səlahiyyətli nümayəndəsinə) əmlakın siyahıya alınması haqqında protokolun surətini əlavələri ilə birlikdə göndərir.

❖ Siyahıya alınmış əmlakın hərracda satılması zamanı qiymətləndiricinin xidməti bütün hallarda vergi ödəyicisi tərəfindən ödənilir.

## Nə dəyişdi?

❖ **01.01.2024-cü il tarixdən qüvvəyə minmiş qanunvericiliyə əsasən,** artıq əmlak dövlət reyestri aparılan daşınar və daşınmaz əmlaklara aid olarsa, vergi ödəyiciləri əmlakın siyahıya alınmasında bilərəkdən iştirak etmədiyi halda, vergi orqanı həmin əmlakı reyestr məlumatları əsasında vergi ödəyicisinin və müşahidəçilərin iştirakı olmadan siyahıya ala bilər.

❖ **01.01.2024-cü il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən,** əmlakın hərracda satılması zamanı qiymətləndiricinin xidmətinin yalnız məhkəmənin qərarı əsasında əmlakı satılan vergi ödəyicisi tərəfindən ödənilməsi nəzərdə tutulurdusa, **01.01.2024-cü il tarixdən qüvvəyə minmiş** qanunvericiliyə əsasən, qiymətləndiricinin xidməti bütün hallarda vergi ödəyicisi tərəfindən ödəniləcəkdir.

**Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.**

**BAKI — 2024**